## İŞ YOLDAŞLARIMIZ

*UOT 37.*

***Həsən Həsən oğlu Bayramov***
*pedaqogika üzrə elmlər doktoru*
***Xatirə Bədrəddin qızı Bəşirli***
*filologiya üzrə elmlər doktoru, professor*

# ZİYALILIQ VƏ LƏYAQƏT SİMVOLU

***Гасан Гасан оглы Байрамов***
*доктор наук по педагогике*
***Хатира Бадреддин гызы Баширли***
*доктор наук по филологии, профессор*

## СИМВОЛ ИНТЕЛЛЕГЕНТНОСТИ И ДОСТОИНСТВА

***Hasan Hasan Bayramov***
*doctor of pedagogical sciences*
***Khatira Badreddin Bashirli***
*doctor of philological sciences, professor*

## SYMBOL OF INTELLIGENCE AND ADVANTAGES

Belə bir deyim var: dörd adam dörd əlamətlə tanınar: yazıçı yazısı, alim hikməti, hikmət sahibi əməli, həlim adam yumşaqlığı ilə. Amma haqqında söz açmaq istədiyimiz Hümeyir Əhmədova şəxsiyyət olaraq yanaşmaq üçün bu əməllərin onun simasında tamamilə əks olunduğunu görürük.

Hümeyir müəllimdə adamı cəlb edən iki əsas məqam var. Əvvələ, ürəyi safdır, həsəddən, küdurətdən, kindən, ədavətdən, paxıllıqdan uzaqdır. Sadəliyi, səmimiliyi və ünsiyyət qura bilmək qabiliyyəti ilə seçilir. Ziyalı üçün bu, çox vacibdir. İkincisi, tələbkardır, amma eyni zamanda insanlara müsbət mövqedən yanaşır. Üçüncüsü, yaxşı təşkilatçısıdır. Təhsil İnstitutunda rəhbərlik etdiyi elmi-pedaqoji kadr hazırlığı şöbəsinin fəaliyyətini səmərəli qurub.

Hümeyir müəllim uzun illər boyu çalışqanlığının əvəzi kimi bu gün təhsilimizin aparıcı simalarından birinə çevrilmişdir, ən yüksək elmi ada, elmi dərəcəyə layiq görülmüşdür. Professordur. Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü (2007), Rusiya Dövlət Təhsil Akademiyasının xarici üzvü (2006), Pedaqoji Təhsilin Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü (2007), Rusiya Hüquq Elmləri Akademiyasının (2008), Rusiya Federasiyasının Təhsilin İnformatlaşdırılması Akademiyasının həqiqi üzvü (2012), Rusiya Təbiətşünaslıq Akademiyasının həqiqi üzvüdür (2018). Bundan başqa, bir çox respublika və xarici elmi-pedaqoji jurnalların redaksiya heyətinin üzvüdür.

Hümeyir Əhmədov 14 avqust 1958-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun (hazırda ADPU) riyaziyyat fakültəsini bitirmişdir.

Təyinatla Xaçmaz stansiyası 45 nömrəli dəmir yolu orta məktəbində, Saatlı stansiyasında 33 nömrəli dəmir yolu orta məktəblərində riyaziyyat, fizika və əmək müəllimi; sonralar general Ç. Naxçıvanski adına hərbi təmayüllü ixtisaslaşdırılmış internat məktəbində tərbiyəçi müəllim, A.S. Makarenko adına 12 №-li rus dili təmayüllü internat məktəbində riyaziyyat müəllimi kimi fəaliyyət göstərmişdir.

1984–1987-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutunun (hazırda Təhsil İnstitutu) aspiranturasında təhsil almış, "Azərbaycan SSR-də hamılıqla orta təhsilə keçirilməsinə hazırlıq və onun həyata keçirilməsi (1961-1977)" mövzusunda namizədlik dissertasiyası (1988); sonralar "Qloballaşma şəraitində Azərbaycan Respublikasında ali təhsilin modernləşdirilməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.





Hümeyir Əhmədov 1998-2000-ci illərdə Azərbaycan ETPEİ-nin Pedaqogika nəzəriyyəsi və tarixi şöbəsində kiçik elmi işçi, baş elmi işçi vəzifəsində işləmişdir. 2000-ci ildən Azərbaycan ETPEİ-nin bazasında yaradılmış Təhsil İnstitutunun Elmi-pedaqoji kadr hazırlığı şöbəsinin müdiri, dir. 2014-cü ildən Bakı Qızlar Universitetinin Pedaqogika kafedrasının professorudur.

1985-ci ildən SSRİ PEA-nın "Məktəb və pedaqogika tarixi" üzrə problem şuranın üzvü, 2003-cü ildən ABŞ-ın Minnesta Universitetinin "Təhsilin strateji planlaşdırılması" üzrə Koordinasiya Şurasının üzvü və fəxri professorudur. 2004-cü ildən "Pedaqoqlar sülh və qarşılıqlı anlaşma uğrunda" Beynəlxalq ictimai hərəkatının Azərbaycan təşkilatının üzvüdür. Uzun illərdir ki, pedaqoji elmlər sahəsində fəaliyyət göstərən dissertasiya şuralarının üzvü kimi gənc alimlərin yetişməsinə öz töhfəsini verir.

Hümeyir müəllim Moskvada nəşr etdirdiyi "Конституционно-правовые основы науки, научной и научно-технической деятельности в Российской Федерации" monoqrafiyasının (2010) müəllifidir.

Pedaqogika üzrə elmlər doktoru, professor H.M. Əhmədovun tədqiqat sahəsi genişdir və təhsilin gələcək perspektivlərinə yönəlmişdir. Bu elmi araşdırmalar Azərbaycanın milli-mənəvi dəyərləri, mədəniyyəti, zəngin və çoxəsrlik inkişaf tarixinə malik təlim və tərbiyə sisteminə həsr olunmuşdur. Azərbaycanda ali təhsilin təşəkkülü və inkişafı mədəni-pedaqoji ənənələr və tolerant düşüncə kontekstində araşdırılır, ali təhsilin yeniləşdirilməsinin əsas istiqamətləri nəzərdən keçirilir. Bu əsərlərdə respublikamızda ali təhsilin yeniləşdirilməsi qloballaşma kontekstində təhlil olunur, ali təhsil sisteminin qlobal təhsilə keçidi prosesinin mexanizmi və yeniləşmənin müxtəlif aspektləri müəyyənləşdirilir, beynəlxalq əməkdaşlıq və kadr təminatı, təhsilin modernləşdirilməsinin praqmatik hüdudları və elmi-pedaqoji təminatı, ali məktəb fəaliyyətinin müasir şəraitdə əsas prioritetləri və inkişaf strategiyası araşdırılır. Hümeyir Əhmədovun əsərlərində ali təhsil sistemi Bolonya prosesi müstəvisində təhlil edilir, paradiqmaların modernləşdirilməsi və ali təhsilin keyfiyyət göstəricilərinin yüksəldilməsi və reallığa uyğun hüquqi-normativ bazanın yaradılması prosesi araşdırılır.

Təhsillə bağlı əsərlərində qloballaşma şəraitində Azərbaycan Respublikasında ali təhsilin modernləşdirilməsi istiqamətləri və inkişaf tendensiyası, mövcud idarəetmə sisteminin yeniləşdirilməsinin sosial-siyasi və pedaqoji-psixoloji əsasları müəyyənləşdirilir. Avropa təhsil məkanına inteqrasiyanın şərtlərindən biri kimi ali təhsil sisteminin modernləşdirilməsinin elmi-nəzəri, təşkilati-pedaqoji əsaslarının təkmilləşdirilməsinin və qloballaşan dünyada sərbəst fəaliyyət göstərməyi bacaran yüksək ixtisaslı kadrların hazırlanmasının praktiki yolları üzə çıxarılır. Əsərdə irəli sürülmüş yeni ideyaların, ümumiləşdirmə və təkliflərin bir qismi həm dövlət, həm də özəl ali təhsil müəssisələri üçün nəzərdə tutulmuşdur.

Qloballaşma şəraitində Azərbaycanda ali təhsilin inkişaf strategiyası və ali təhsilin modernləşdirilməsi professor Hümeyir Əhmədovun sistemli tədqiqatlarının predmetinə çevrilmişdir. Bu baxımdan onun "Ali təhsilin modernləşdirilməsi" (2008) monoqrafiyasını nümunə gətirmək olar. O, tədqiqatlarında milli təhsil sisteminin inkişafı, təkmilləşdirilməsi, idarə edilməsi sahəsindəki problemləri həm nəzəri-konseptual, həm də praktik baxımdan araşdırmış, prosesin dinamikasını müəyyənləşdirmişdir. Təhsilin inkişafının qanunvericilik və normativ-hüquqi təminatı, idarə olunmasının dövlət-ictimai əsaslarının formalaşdırılması, tədris müəssisələrinin nəzəri və praktiki cəhətdən müstəqilliyinin genişləndirilməsi sahəsində müxtəlif mexanizmləri təcrübədən keçirmiş, təhsilin məzmun və strukturunun yeniləşdirilməsi ilə bağlı praktik tövsiyələr vermişdir.

Hümeyir Əhmədovun araşdırmalarının üstünlüyü ondadır ki, o, ideoloji tabeçiliklə xarakterizə olunan sovet təhsil sistemindən Avropa ali təhsil məkanına inteqrasiya edən ali təhsil sisteminə keçid proseslərini pedaqoji-psixoloji və aksioloji cəhətdən dəyərləndirmişdir. O, təhsilin hüquqi nizamlanmasının elmi əsaslarını da tədqiq etmiş, "Təhsil hüququ" fənninin proqramını və dərsliyini hazırlamışdır. Əsərlərində ölkəmizdə təhsil siyasətinin istiqamətlərinin və təhsil sisteminin əsaslı surətdə yenidən qurulması prosesində baş vermiş sosial-pedaqoji hadisələrin mürəkkəbliyini, onun ziddiyyətlərini ətraflı təhlil etmiş, islahatların qaçılmazlığını və labüdlüyünü əsaslandırmışdır.

Professor H.M. Əhmədov "Azərbaycanda xeyriyyə cəmiyyətlərinin maarifçilik fəaliyyəti", "Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəs", "Человеческий ресурс Азербайджанского образования", "Ali təhsilin modernləşdirilməsi", "Azərbaycan təhsilinin inkişaf strategiyası", "Конституционно-правовые основы науки, научной и научно-технической деятельности в Российской Федерации", "The Strategy of Education Development in Azerbaijan", "Elmi-pedaqoji və pedaqoji kadr hazırlığı problemləri" (həmmüəllifli) və s. bu kimi kitab və monoqrafiyaları qələmə almışdır.

Bundan başqa, ümumtəhsil, orta və ali pedaqoji ixtisas təhsili müəssisələri üçün bir sıra metodik vəsaitlər, dərs vəsaitləri, dərsliklər yazmışdır. "Управленческая педагогика и психология", "İnformatikanın tədrisi metodikası", "Pedaqogika", "Təhsil hüququ", "Texnologiya: Ümumtəhsil məktəblərinin II-IX sinif şagirdləri üçün", "Alqoritmlər nəzəriyyəsi" dərslik və dərs vəsaitləri nümunə göstərilə bilər.

Professorun "The Strategy of Education Development in Azerbaijan" adlı monoqrafiyası və "Pedaqogika" adlı dərsliyi 2018-ci ildə Parisdə keçirilən kitab sərgisində "Qızıl medal"la təltif olunaraq sertifikata layiq görülmüşdür. Onun Norveçdə və Sloveniyada ulu öndər Heydər Əliyevin anadan olmasının 95 illiyi ərəfəsində elm və təhsilin inkişafında roluna dair məcmuədə dərc olunan məqaləsi də maraq doğurur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə elm və təhsilin inkişafına həsr olunmuş maraqlı məqalələri ölkədə və xaricdə nəşr edilmişdir. Xüsusi qeyd etmək istəyirik ki, onun İsmayıl bəy Qasparlının üsuli-cədid məktəblərinin təşəkkülünə aid yazdığı silsilə məqalələri elmi-pedaqoji ictimaiyyət tərəfindən maraqla qarşılanmışdır.

Professor Hümeyir Əhmədov "Azərbaycan Respublikasının qabaqcıl təhsil işçisi" döş nişanı (2006), Rusiya Federasiyası Elm və Təhsil Nazirliyinin K.D. Uşinski adına medalı (2009) ilə təltif edilmişdir. "Qızıl Qələm" media mükafatı laureatıdır. Ona "YUNESKO müəllimi" (2008) fəxri adı sertifikatı verilmişdir (Kazan şəhəri). Rusiya Federasiyasının 3-cü dərəcəli «Долг и честь» ordeni (2008) ilə təltif edilmişdir. RTA-nın Prezidiumunun 2017-ci il tarixli qərarı ilə "Əməkdar elm və təhsil xadimi" fəxri adına layiq görülmüşdür.

Professor Hümeyir Əhmədov elmi-pedaqoji fəaliyyətinin uğurlu nəticələrinə görə 2018-ci ildə EUROPEAN SCIENTIFIC AND INDUSTRIAL CONSORTIU-un "LABORE ET SCIENTIA" Ordeni ilə təltif olunmuşdur.

Hümeyir Əhmədovu səciyyələndirən başlıca meyarlar təkcə onun pedaqogika elmi sahəsində, təhsili idarə etmə sahəsində, qazandığı elmi və peşəkar fəaliyyəti yox, məhz onun şəxsi ləyaqətidir. Məncə bunlar bir-birini tamamlamasaydı, bu uğurlar, nailiyyətlər də olmazdı.

Onun elmi rəhbərliyi ilə fəlsəfə doktoru proqramı üzrə bir sıra dissertasiyalar müdafiə olunmuşdur.

Prof. Hümeyir Əhmədovun elmi-pedaqoji fəaliyyəti təkcə ölkə hüdudları ilə məhdudlaşmır. O, "Azərbaycan məktəbi", Azərbaycan Respublikasının Təhsil İnstitutunun "Elmi əsərləri" və "Kurikulum" jurnalı ilə yanaşı "Право и Жизнь», "Инновационные проекты и программы в образовании", "Психология и педагогика служебной деятельности" (зарегистрированы в России), "Международный журнал психологии и педагогики служебной деятельности" (зарегистрирован в Грузии) elmi nəşrlərin redaksiya heyətinin üzvüdür.

Beləliklə, Hümeyir müəllimi xarakterizə edən başlıca məqamlar, öncə dediyimiz kimi, onun ziyalı ailəsində boya-başa çatması, kübarlığı və vətənpərvərliyidir. Onun yetişməsində, heç şübhəsiz, ailəsinin ziyalılığı, təhsil aldığı bütün səviyyələrdə mikromühitin münbitliyi, başlıca amil isə XX-XXI əsr Azərbaycan elmi-pedaqoji fikrinin ən məhsuldar və istedadlı nümayəndələrindən olan akademik Hüseyn Əhmədovun ailəsində doğulub-böyüməsidir.

Hümeyir müəllimin babası 1918-ci ildə Şuşada realnı gimnaziyanı, 1926-cı ildə isə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika-riyaziyyat fakültəsini bitirmiş (akademik Mehdi Mehdizadə ilə eyni qrupda təhsil almışdır) və müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur (bax: M.C. Mərdanov Azərbaycan təhsil tarixi. 4 cilddə, II cild. s. 442). Necə deyərlər, ot kökü üstə bitər. Professor Hümeyir Əhmədov ziyalılıq titulunu şərəflə daşıyan xoşbəxt alim və oğuldur.

Bir göz qırpımında altmışı haqlaması onunla bağlı bizi bəzi kövrək olan qeydlərə də şövq etdi. Əlbəttə, deyiləsi söz çoxdur. Qalsın yetmişinə.

**Redaksiyaya daxil olub:** 01.10.2018.



*Məcmuə "Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzində səhifələnmiş və çap olunmuşdur.*

Çapa imzalanıb: 15.01.2019
Format: 84x108 1/16. Qarnitur: Times.
Həcmi: 14,5 ç.v. Tiraj: 200. Sifariş № 47.

MÜTƏRCİM

**TƏRCÜMƏ VƏ NƏŞRİYYAT-POLİQRAFİYA MƏRKƏZİ**

**Az 1014, Bakı, Rəsul Rza küç., 125/139 b**
**596 21 44; 497 06 25; (055) 715 63 99**
**e-mail: mutarjim@mail.ru**
**www.mutercim.az**